**Fındıq bağlarında keçirilən fitosanitar monitorinqlərə dair məlumat (7 oktyabr 2022)**

Milli Monitorinq Planı çərçivəsində Agentlik əməkdaşları tərəfindən Şəki-Zaqatala bölgəsində meyvə bağlarında aparılan monitorinqlər zamanı təhlükəli zərərverici olan qəhvəyi mərmər taxtabiti (*Halyomorpha halys*) müəyyən edilib. Zərərverici əsasən Balakən şəhəri və rayonun Hənifə, Kortala, Püştətala kəndləri, Zaqatala rayonunun Əliabad qəsəbəsi, Muxax, Bazar, Yuxarı Tala, Aşağı Tala, Üçüncü Tala kəndləri, Qax rayonunun Tasmalı və Zəyəm kəndləri ərazisində yerləşən fındıq bağlarında, Zaqatala rayonunun qoz və qarğıdalı əkin sahələrində aşkarlanıb.

Hazırda 3 rayon üzrə 15 yaşayış məntəqəsində zərərvericinin yayılma arealı müəyyənləşdirilib. Bununla bağlı olaraq, dərhal zərərvericinin yayılmasının qarşısının alınması üçün biotexniki mübarizə tədbirləri çərçivəsində feromon tələlər asılıb, eyni zamanda mexaniki mübarizə tədbilərinin həyata keçirilməsinə başlanılıb.